# Terrorçu ölkə olan İranın riyakarlığı

İranda Məhsa Əmininin ölümü ilə başlayan aksiya bir müddət sonra genişlənərək həm də rejimə qarşı xalq etirazına çevrildi. Beləliklə, ötən ilin sentyabrından başlayan və xalq azadlıq hərəkatına çevrilən mitinqlər 6 aya yaxındır ki, davam edir.

## Mitinqlərdə 500 nəfərə yaxın insan öldürülüb

Aksiya müddətində xalqı etirazlara səsləyənlərə, iştirakçılara kömək edənlərə qarşı polis tərəfindən xəsarət yetirilir, günahsız insanlar saxlanılır, həbs olunurlar. Həmçinin onlar barəsində ölüm hökmü çıxarılır, edama məhkum edilirlər.

Dəhşətlidir ki, saxlanılanların ailə üzvləri, hətta vəkilləri ilə görüşmələrinə icazə də verilmir, onların vəziyyəti haqqında məlumatlar gizlədilir. Ümumilikdə aksiya nəticəsində öldürülənlərin və saxlanılanların dəqiq sayı hakimiyyət orqanları tərəfindən açıqlanmır. Bu, bir daha molla rejiminin necə qəddar olduğunu, insan haqlarını kobud şəkildə pozduğunu sübut edir.

İran İnsan Haqları Təşkilatının məlumatına görə, indiyədək aksiyalarda təhlükəsizlik qüvvələri tərəfindən 490-dan çox adam öldürülüb. Ən azı 107 etirazçı isə hazırda edam cəzası ilə üz-üzədir.

Təkcə bu ilin yanvar ayında 55-dən çox şəxsin edam edildiyi bildirilir. Təşkilat ölüm hökmünün, terrorların əsas məqsədinin cəmiyyətdə qorxu yaratmaq olduğunu vurğulayaraq islam respublikası tərəfindən həyata keçirilən hər bir edamın siyasi xarakterli olduğunu bəyan edir.

## Ermənistana arxa duran İran

Xalqı qorxu içində saxlamaq, terroru dəstəkləmək İranın yalnız





daxili deyil, həm də xarici siyasətidir. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə, ərazilərimizi dağıtmasına, dini abidələrimizi təhqir etməsinə bir dəfə olsun belə səsini çıxartmadı. Din adı altında gizlənərək terrorçu dövləti dəstəklədi, ərazisindən hərbi məqsədlər üçün silah-sursatın daşınmasına şərait yaratdı.

Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsindən narahat olan İran Ermənistanın təhlükəsizliyini öz təhlükəsizliyi elan edərək terrorçu dövlətə arxa dayaq oldu.

Maraqlıdır ki, İranı qorxuya salan nə idi? Azərbaycanı özünə niyə təhdid olaraq görürdü? Axı Azərbaycan İranla daim mehriban qonşuluq münasibətlərinin saxlanması üçün addımlar atıb. Bu cür münasibətin qarşılığını isə heç bir zaman görməyib.

Son olaraq İrandakı Azərbaycan səfirliyinə edilən silahlı hücum, ölkənin mühafizə xidmətinin heç bir tədbir görməməsi, eyni zamanda terror aktından bir həftədən çox keçməsinə baxmayaraq, hələ də hadisə ilə bağlı lazımi addımların atılmaması bu ölkənin Azərbaycana qarşı düşmənçilik mövqeyində durduğunu bir daha göstərdi.

## İranın molla rejimi Xoydakı azərbaycanlılara yardım təkliflərindən imtina edir

İranda baş verən zəlzələdən sonra Xoyda azərbaycanlılara qarşı edilən ayrı-seçkilik də bu ölkənin soydaşlarımıza qarşı hansı münasibətdə olduğunun, yeritdiyi riyakar siyasətin göstəricisidir. Ötən ay baş verən zəlzələlərdən sonra dağıntıdan əziyyət çəkən əhalinin vəziyyəti acınacaqlı olaraq qalır. Yerli sakinlər çadır çatışmazlığının olduğunu, havaların soyuq və qarlı keçməsinin vəziyyəti daha da çətinləşdirdiyini deyirlər. Azərbaycan zəlzələdən zərərçəkən soydaşlarımıza humanitar yardım göndərmək istəsə də, molla rejimi buna icazə vermir. Deməli, bu ölkədə yaşayan soydaşlarımıza qarşı da mənəvi terror törədir.

Xatırladaq ki, zəlzələlər nəticəsində mindən artıq insan yaralanıb, 3 nəfər ölüb. Azərbaycanın yardımına imkan verməyən İran özü də soydaşlarımıza heç bir yardım göstərmir. Türkiyənin Qızıl Ay Cəmiyyətinin məlumatına görə, İran bu ölkənin yardım təklifindən də imtina edib. Yardımlardan imtina edən və özü də heç bir tədbir görməyən İran Xoyda zəlzələdən əziyyət çəkənlərin problemlərinin mediada işıqlandırılmasına imkan vermir.

İran bununla bir daha insan haqlarını necə kobud şəkildə pozduğunu, din adı altında pərdələnərək islami dəyərlərə qarşı çıxdığını, Azərbaycana qarşı riyakar, çirkin siyasət yeritdiyini nümayiş etdirir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 4 fevral.- S.11.